**Təranə YUSİFOVA**
AMK-nın dosenti
Sənətşünaslıq üzrə fəlsəfə doktoru
Ünvan: Yasamal r. Ə.Ələkbərov küç. 7
E-mail: yusifovatarana2@gmail.com

# OQTAY KAZIMİNİN "FİTNƏ" PYESİNƏ MUSİQİSİ

***Xülasə:*** *Məqalədə Oktay Kazımının teatr tamaşalarına bəstələdiyi musiqisinə nəzər yetirilir və bilavasitə A.Şaiqin "Fitnə" pyesinə yazılmış musiqi nömrələri təhlil olunur. Bəstəkar bu tamaşada instrumental nömrələrlə yanaşı, vokal musiqiyə geniş yer ayırır. O.Kazımi əsərdə baş verən hadisələri ən münasib ifadə vasitələri ilə göz önündə canlandırır. Məqalədə bəstəkarın teatr tamaşalarına musiqisinin təsviredici elementlərlə zənginliyi vurğulanır və yaradıcılığının bu sahədə üslub xüsusiyyətləri araşdırılır.*

***Açar sözlər:*** *Oqtay Kazımi, teatr, musiqi, melodiya, pyes, təsvirilik, məqam*

O.Kazımının çoxşaxəli və zəngin yaradıcılığında məhsuldar işlədiyi sahələrdən biri də musiqili-səhnə əsərləridir. O, 4 opera, 10 operetta (bunlardan dördü uşaqlar üçün nəzərdə tutulmuşdur), 1 balet bəstələmişdir. Bəstəkarın operaları bəşəri mövzuları özündə təcəssüm etdirən ədəbi mənbələr əsasında yaranmışdır.

O.Kazımi 1985-1987-ci illərdə Azərbaycanın görkəmli şairi, yazıçısı və dramaturqu Hüseyn Cavidin eyniadlı mənzum faciəsi əsasında iki hissəli "İblis" operasını (natamam, libretto müəllifi Ə.Nemətzadə), 1970-ci illərdə M.Ə.Sabirin eyniadlı əsəri əsasında "Hophopnamə" (A.A.Tufarqanlı və Dilqəmin, Çoban Əfqan və Rüfət Zəbuoğlunun şeirləri və Cənnət Səlimovanın librettosu əsasında) rok-operasını (1989-cu ildə orkestrləşdirilmişdir), 2000-ci ildə isə "Dədə Qorqud" epik-dramatik operasını yazmışdır. Lakin, təəssüf ki, bu operalardan heç biri səhnələşdirilməmişdir.

Operalardan fərqli olaraq, O. Kazımının müxtəlif illərdə bəstələdiyi "Qızıl toy" (müəllif R.Heydər), "Danabaş kəndinin əhvalatları" (C.Məmmədquluzadənin eyniadlı povesti əsasında, libretto müəllifi C.Səlimova), "Dəli dünya" (libretto müəllifi F.Məmmədovdur) operettaları səhnə həyatı görərək, musiqili komediya kimi tamaşaya qoyulmuşdur.

O.Kazımi ömrü boyu böyük həvəslə teatr tamaşalarına (30-a yaxın) musiqi üzərində işləyib. Məlumdur ki, teatr tamaşasına musiqi bəstələmək, ən azından yazıçı və rejissor qədər əsərin mahiyyətinin, ideyasının bəstəkar tərəfindən mənimsənilməsini tələb edir. "Teatr mənəvi və estetik tərbiyənin ən güclü vasitələrindən, bədii yaradıcılığın ən mühüm sahələrindən biridir. Sintetik xarakterli bu sənət növündə musiqi məzmun baxımından çox dəyərli rol daşıyır" [1, s. 117].Tamaşanın uğurlu alınmasında musiqinin rolu əvəzsizdir. Hadisələrin gedişatında bəzən təəccüb, heyrət, qorxu, bəzən isə güc, qüvvət, şənlik, uğur, sevinc kimi hisslərin musiqi vasitəsilə daha qabarıq əks etdirilməsi tamaşanın səhnə uğurunu artırır və tamaşaçını özünü əsərin

reallığında hiss etməyə vadar edir. Bu baxımdan O.Kazımi hər bir pyesin ruhunu tutmağa nail olub və bəstəkarın teatr tamaşalarına bəstələdiyi musiqi də ayrıca bir tədqiqat obyekti kimi gündəmə gələ bilər.

O.Kazıminin teatr musiqisi mahnıları qədər güclü emosional təsir qüvvəsinə malik olmaqla dinləyicilərin qəlbinə yol tapa bilmişdir. Bildiyimiz kimi, teatr tamaşalarına, kinofilmlərə yazılan musiqi daha çox gözəl melodiyalarla məşhurlaşır. Burada təqdim olunan qəhrəmanların ifa etdikləri mahnılar, romanslar sonradan müğənnilərin repertuarında əbədi həyat qazanır. Bu mənada T.Quliyevin kinofilmlərə yazdığı musiqi ilə O.Kazıminin teatr musiqisi arasında müəyyən paralellər çəkmək mümkündür. Mahnı janrının peşəkarlarından biri sayılan O.Kazıminin teatr musiqisi də məhz bu keyfiyyətlərə malik olması ilə fərqlənir. Onun müxtəlif məzmunlu əsərlərə bəstələdiyi musiqi bədii süjet xətti, obrazlar aləmi ilə üzvi vəhdət təşkil edərək tamaşaçıların yaddaşına hopmağa və onların dilində sevilən zümzüməyə çevrilməyə qadirdir.

Oqtay Kazımi bir sıra yaddaqalan teatr tamaşalarına musiqinin müəllifidir: “Yatmış gözəl və yeddi qardaş” (A.S.Puşkinin poeması əsasında 1974-cü ildə yazılmışdır, quruluşçu rejissor M.Kazımov), “Qılınc və qələm” (M.S.Ordubadinin romanı əsasında, 1976-cı il), “Ümid” (M.İbrahimovun əsəri əsasında, 1976-cı il, quruluşçu rejissor T.Kazımov), “Müsyo Jordan və Dərviş Məstəli şah” (M.F.Axundovun eyniadlı əsəri əsasında, 1978-ci il), “Cehizsiz qız” (A.Ostrovskinin əsəri əsasında, 1979-cu il, quruluşçu rejissor Ə.Şərifov), “Büllur sarayda” (İ.Əfəndiyevin əsəri əsasında, 1983-cü il, quruluşçu rejissor A.Kazımov), “Çahargah fantaziyası” (K.Kərimovun əsəri əsasında, 1984-cü il, quruluşçu rejissor A.Kazımov), “Cavan qadın üçün bir kişi” (M.İbrahimbəyovun əsəri əsasında, 1984-cü ildə Rus Dram Teatrı üçün yazılmışdır, quruluşçu rejissor K.Adamov), eləcə də “Ümid”, “Qızıl toy”, “Sınaq”, “Tamahkar”, “Fitnə”, “Ədirnə Fəthi”, “Köpəklər”, “Damokl qılıncı” və daha onlarca teatr tamaşalarına musiqini xatırlaya bilərik.

O.Kazıminin teatr tamaşalarına yazdığı musiqi qəhrəmanların xarakterik cəhətlərini, obrazlı-emosional aləmini, mənəvi dünyasını özündə əks etdirməklə yanaşı, həm də əsərin ümumi gedişatında emosional və psixoloji effekt yaratmağa nail olur. Teatr tamaşası zamanı səslənən musiqi parçaları öz-özlüyündə vahid bir tonal mərkəzə tabedir. Bu musiqini müstəqil şəkildə dinlədikdə belə səhnədə gedən hadisələrin, təqdim olunan obrazların xarakterindən məlumat almaq mümkündür. Bəstəkarın musiqisinə xas olan teatrallıq, vizual effektlərin böyük ustalıqla istifadəsi onu bədii süjet xəttindən ayrılmaz edir. Beləliklə, bədii məzmunla musiqinin daha bir mükəmməl vəhdəti O.Kazıminin teatr tamaşalarına yazılmış musiqisində özünü göstərir.

Ümumiyyətə, bəstəkar teatr kollektivi ilə işləməyi çox sevirdi. Bir vaxtlar onunla bu sahədə əməkdaşlıq etmiş görkəmli teatr rejissoru, respublikanın xalq artisti C.Səlimova O.Kazıminin işinə professional münasibətini yüksək dəyərləndirərək demişdir: “Oqtay Kazıminin mahnılarını əlbəttə hamı tanıyır. Lakin onun elə əsərləri var ki, neft kimi, yeraltı sərvət kimi axtarıb tapıb çıxarmaq, təqdim və təbliğ etmək lazımdır. Çünki bu əsərlər Azərbaycan incəsənətinin incisidir. İlk dəfə, məhz O.Kazımi Azərbaycanda rok-opera janrında əsər yazmışdır. Onun bu gün də öz təra-

vətini itirməyən "Şeyx Sənan" tamaşasına yazdığı musiqini ulu öndər Heydər Əliyev yüksək qiymətləndirirdi. Tamaşanın musiqisi olduqca gözəl və əsrarəngiz idi. Onun möhtəşəm finalı hələ də mənim qulaqlarımda səslənir. Bu tamaşa hal-hazırda gənc və olduqca istedadlı bəstəkar Firudin Allahverdinin musiqisi ilə oynanılmasına baxmayaraq, O.Kazıminin melodiyalarını, duetlərini unutmaq qeyri-mümkündür. Onunla işləmək o qədər də asan deyildi. O.Kazımi musiqinin mətninə olduqca ciddi yanaşırdı. Oqtaya iki günə musiqi yazdırmaq mümkün deyildi, çünki o öz sənətinə son dərəcə ciddi yanaşırdı. O.Kazımi bizim teatrı, kollektivimizi çox sevirdi, yaradıcı insan olaraq bizi dərindən və həssaslıqla duyurdu" [6].

Oqtay Kazıminin A.Şaiqin "Fitnə" pyesi əsasında teatr tamaşasına yazdığı musiqisi maraqlı və yaddaqalandır. Əsər 1979-cu ildə Azərbaycan Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulmuş və Beynəlxalq uşaq ilinə həsr olunmuşdur. Məmmədkazım Kazımovun rejissorluğu ilə tamaşaya qoyulan bu əsərə O.Kazıminin bəstələdiyi musiqi parlaq xarakter verir. Burada səslənən nömrələr arasında "Bəhramın sarayı", "Saray rəqsi", "Yallı", Fitnənin oxuduğu "Bir gün", "Oxu bülbülüm" mahnıları, Bəhram şahın ziddiyyətli obrazını ifadə edən "Bəhram tək qalır" və s. xüsusilə fərqlənir.

Onu da qeyd etməliyik ki, "Fitnə" tamaşasına daha bir bəstəkar - Əşrəf Abbasov da musiqi bəstələmişdir. A.Şaiqin pyesi Azərbaycanın böyük şairi N.Gəncəvinin "Yeddi gözəl" poemasının motivlərinə əsaslanır. Klassik ədəbiyyatdan hər birimizə tanış olan bu əsərdə baş verən hadisələr A.Şaiqin pyesində özünəməxsus şəkildə, bədii məzmunun fəlsəfi, ibrətamiz məqamlarının vurğulanması ilə təqdim olunmuşdur.

Fitnə pyesinin ilk musiqi nömrəsi olan müqəddimə səslənərkən Orta əsrlərin şah sarayı mühiti göz önündə canlanır. Cis mayəli şur məqamında yazılmış bu müqəddimədə muğam improvizasiyaları əvvəl orta, sonra isə yuxarı registrdə fleyta alətində səslənir. Orta hissədə ud alətinin ifasında səslənən Şur muğamının intonasiyaları ürəyə toxunan melodiyadır. Müqəddimə sadə üç hissəli formadadır. Ud alətinin muğam solosundan sonra bəstəkar klavirin əlyazmasında koda sözünü qeyd etmişdir. Lakin koda kimi qeyd olunan hissə müqəddimənin ilk 12 xanəsindəki mövzunun eynilə təkrarıdır. Orta hissədə ud alətində "Şur" muğamından bir parçanın ifası orkestrdə gis-cis intervalının təkrarı fonunda akkordun yuxarı səsi isə trel şəklində sekvensiya yolu ilə sekundalarla aşağı hərəkət edərək muğamı müşayiət edir və bu zaman aşağı səsdə əvvəldəki kimi, lakin bu dəfə yalnız cis səsi eyni ritmdə ostinato fonu saxlayır [Nümunə 1].

**Nümunə 1**




Əsərin əsas qəhrəmanlarından biri olan Bəhram şahın obrazı bir neçə istiqamətdə açılmaqla onun daxili aləminin təzadlı tərəfləri, o cümlədən gözəllik vurğunu olduğu qədər də qəzəbli, qəddar, şan-şöhrət həvəskarı kimi cəhətləri vurğulanır. Bu xarakter bir neçə musiqi nömrəsi ilə təcəssüm olunur. Şahın qəddarlığı akkord ardıcıllığı, daxili iztirabları isə muğam üslubunda verilmiş sekvensiyalarla göstərilir. Qeyd etmək lazımdır ki, şahın təzadlı obrazının açılmasında daha çox rol oynayan "Bəhram tək qalır" nömrəsi hadisələrin açılmasında təkanverici rola malikdir.

"Bəhramın sarayı" adlı 2-ci nömrə - *Andante Maestoso* tempində təntənəli xarakter daşıyan musiqi d səsi üzərində oktava ostinatosu fonunda səslənir. Orkestrdə şeypur aləti vasitəsilə vurğularla zəngin melodiya şah sarayının təmtəraqlı mühitini və bu sarayda xidmət edən müxtəlif təbəqədən olan insanların obrazını yaradır. Bəstəkar III hissədə marş janrı ilə, bütün səslərin üzərində əvvəldən sona kimi vurğu işarəsini qeyd etməklə saray mühitinin parlaq, təmtəraqlı görünüşünü təsvir etməyə çalışır. Bu musiqi nümunəsi 3 hissədən ibarətdir (D-F-As). I hissənin mövzusu 9 xanədən ibarət melodik sətirdir. Oktava həcmində tremolo fonunda melodiya rast məqamında verilir. II hissədə əvvəlki mövzuya oxşar yeni variantda, yeni ritmik quruluşlu rast məqamına xas muğam çalarlı melodiya səslənir. Hər iki hissəni bir-birinə bağlayan əsas xüsusiyyət isə basdakı ostinato fonun verilməsidir. Sonuncu hissədəki marş şahın saraya gəlişinin təsvirini verir. Bu musiqi nömrəsi əsərin 21-ci nömrəsində təkrarlanır [Nümunə 2].

**Nümunə 2**




Tamaşanın 3-cü nömrəsi olan saray rəqsinin melodiyası milli xüsusiyyətləri özündə əks etdirərək, aşıq musiqisi ruhundadır. Burada "Bağa girdim" xalq mahnısının intonasiyaları verilir [Nümunə 3].

**Nümunə 3**




Fitnə pyesində 4-cü musiqi nömrəsi iki şirin arasından tacın götürülməsi səhnəsini xarakterizə edir. Bəstəkar Bəhramla iki şir arasında mübarizənin təsvirini yaratmağa çalışır. Şirlərlə mübarizəni daha qabarıq göstərmək üçün bəstəkar ostinat fonda iki müxtəlif səsin xromatik gedişlərini əvvəl aşağı, sonra yuxarı səsləndirməklə gərginliyi daha da artırır və dominanta səsinin fonunda sekstalı nonakkordu verir. Şahın qalibiyyətini vurğulu dominanta səsinin sonda tonikaya həlli səciyyələndirir. Litavraların solosu, polifonik gedişlər bu musiqi nömrəsinin xarakterini müəyyənləşdirir. [Nümunə 4].

**Nümunə 4**




Tamaşanın 5-ci nömrəsi Fitnənin monoloqudur. Şur məqamında olan bu monoloq qəm, kədər hissi oyadır və polifonik üslubda, muğam çalarları ilə zəngin olub trio üçün yazılmışdır. Fitnənin monoloqu sadə ikihissəli reprizli formadadır. Bəstəkar, muğam improvizasiyasının köməyilə kədərli bir təəssürat yaratmağa nail olmuşdur. Bu musiqi tamaşanın 20-ci nömrəsində də təkrarlanır [Nümunə 5].

**Nümunə 5**



O.Kazımi xalqın obrazını milli rəqs nümunələrindən istifadə etməklə açmağa çalışmışdır. Əsərdə 6-cı və 25-ci nömrələrdə səslənən "Yallı" rəqsləri maraq doğurur. Kollektiv rəqslərdən olan "Yallı" həm də xeyirin şər üzərində qələbəsini təcəssüm edən simvol kimi çıxış edir [Nümunə 6].

**Nümunə 6**




Sonda səslənən Yallı rəqsi özündə müqəddimənin elementlərini nümayiş etdirir.

Bəstəkar zərif və iradəli, müdrik el qızı olan Fitnə obrazını fəlsəfi xarakter daşıyan monoloqda, eləcə də lirik mahnılara yaxın üslubda tərənnüm edir. Fitnənin Nizaminin sözlərinə "Bir gün" mahnısı Bəhram şah obrazının mənfi tərəflərini təsvir edir. 13 xanəli girişlə başlayan mahnıda zərb alətinin ritmi göstərilir. Sadə ikihissəli formada yazılmış mahnı qəmli, kədərli təsir oyadır. I hissənin davamı kimi səslənən II hissədə melodiyada cüzi fərq nəzərə çarpır. Mayənin ostinat fonunda Segah muğamının çalarları üzərində səslənən "Hanı elə şah" mahnısı əvvəlki mahnı ilə yanaşı, Fitnənin haqsızlığa, ədalətsizliyə qarşı mübarizəsini əks etdirir.

Fitnə obrazını bəstəkar daha çox lirik, həzin və müdriklik nümayiş etdirən musiqi ilə təsvir edir. Onun ifasında səslənən mahnılar tamaşanın parlaq nömrələrindən biridir. Fitnənin ifa etdiyi "Oxu bülbülüm", "Gözəl təbiət" mahnılarında O.Kazıminin mahnı üslubuna xas olan bir sıra xüsusiyyətləri cəmləşmişdir. Hər iki mahnı 2011-ci ildə "A.Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri" məcmuəsində [2, s.172-175; 176-180] digər bəstəkarların əsərləri ilə yanaşı dərc olunub.

"Fitnə" tamaşasına yazılan musiqi nömrələri sırasında O.Kazıminin iki mahnısı özünəməxsus üslubu, dəsti-xətti ilə seçilir. "Gözəl təbiət" və "Oxu bülbül" mahnıları xarakter, məzmun və ovqat etibarilə bir-birindən fərqli olsa da, hər iki mahnı O.Kazıminin folklor üslubunda yazılmış mahnıları xəttini təmsil edir.

"Gözəl təbiət" mahnısı təbiəti tərənnüm edərək şən, nikbin xarakter daşıyırsa, "Oxu bülbül" mahnısı lirik əhval-ruhiyyəlidir. Bu mahnılarda 50-60-cı illərdə mahnı janrının, xüsusilə də Q.Hüseynli, S.Rüstəmov üslubunun təsiri özünü büruzə verir. Bu mahnılar bilavasitə xalq mahnılarının melodik, məqam-intonasiya və ritmik xüsusiyyətlərini özündə ehtiva edir. Mahnıların poetik mətni ilə bağlı diqqət çəkən bir məqamı da qeyd etmək istərdik. Məlum olduğu kimi, O.Kazımi mahnı janrında daha çox öz nəslindən olan şairlərin poetik irsinə müraciət etmişdir. Abdulla Şaiqin yaradıcılığı bu baxımdan bir qədər istisnalıq təşkil edir. Bununla belə, bəstəkar şairin poeziyasından özünəməxsus şəkildə bəhrələnmişdir. "Gözəl təbiət" mahnısında poetik mətn 11 hecalı misralardan qurulur. Mahnı iki kuplet və nəqəratdan ibarətdir. Kupletlərin hər biri və nəqərat *ababa* şəklində qafiyələnir. Sonda isə əlavə kimi iki

sətir verilir. "Gözəl təbiət" mahnısı [Nümunə 8] reprizalı sadə iki hissəli formadadır. Mahnı 8 xanəlik instrumental girişlə başlanır. Şən, oynaq xarakter və səciyyəvi punktir ritm ona rəqs xüsusiyyəti verir. Bu punktir ritm bütün mahnı boyu davam edir. Qeyd etməliyik ki, müşayiətin səciyyəvi 6/8-ya gedən ritmik formulu bir sıra xalq rəqslərində təsadüf edilir [Nümunə 7].

**Nümunə 7**
***Xalq rəqsi "Brilyant"***



***Xalq rəqsi "Altı nömrə"***




***Xalq rəqsi "Novruzu"***



***Xalq rəqsi "On dörd"***




Kuplet 16 xanəli, 4 cümlədən ibarət kvadrat quruluşlu mürəkkəb period formasındadır. Cümlələr sekvensiyalı variant şəklində inkişaf edir: a $a^1$ $a^2$ $a^3$. Belə sekvensiya-variantlı yol ilə inkişaf xalq mahnıları üçün çox səciyyəvidir. Xalq mahnılarında olduğu kimi, cümlələrin başlanğıcı oxşar, sonluğu, kadansı fərqlidir. Kupletin melodiyası çox inkişaflı olub, melizmlərlə zəngindir. Nəfis trellər, incə forşlaq və mordentlər melodiyaya xüsusi rövnəq verir, sanki ona özünəməxsus şəkildə naxış vurur. Birinci və ikinci cümlələrin ikinci xanəsində, üçüncü və dördüncü cümlələrin üçüncü xanəsindəki melizmatik fiqurlar milli xüsusiyyətləri özündə əks etdirir.

Nəqərat mürəkkəb period formasında olub, dörd cümlədən ibarətdir. Burada birinci və ikinci cümlələrin (a $a_1$) ritmik quruluşu demək olar ki, eynidir. Nəqəratin üçüncü və dördüncü cümlələri kupletin ikinci yarısı ilə oxşardır. Melodika çox rəngarəngdir, melizmatik fiqurlar, nəfis və zərif forşlaqlarla zəngindir. Müşayiətdə ostinat ritmik fiqur yenə saxlanılır. Mahnının sonunda səkkiz xanəli koda verilir. Koda iki cümlədən ibarət, kvadrat quruluşlu sadə period formasındadır. Kodanın tematizmi mahnıya instrumental girişlə eyni olan material üzərində qurulur. Burada cümlələrin başlanğıcı eyni, kadans sonluğu fərqlidir. Melodiyada pilləvari tədrici hərəkət, enən sekvensiyalar ona plastiklik verir. Ritmik xüsusiyyətlər bilavasitə xalq musiqisindən

bəhrələnir. Bu mahnıda rəqs ritmikası üstünlük təşkil edir. Melizmatik fiqurların istifadə edilməsi isə melodiyaya bir qədər improvizə xarakteri verir. Bəstəkar xalq rəqslərinə xas olan oynaqlığı muğama məxsus melizmatik fiqurlarla (qeyd edək ki, belə fiqurlar həm də təsniflərin melodikası üçün səciyyəvidir) üzvi şəkildə qovuşdurur. Rəqsvarilik həm də muğam dəstgahlarındakı rənglərin ritmikasından irəli gəlir. Mahnının kupletinin ikinci yarısı və bütövlükdə nəqərat üçün sinkopa ritmi səciyyəvidir. Burada 6/8 ölçüdə pauzalı sinkopa tətbiq edilir. Punktir ritmə mahnı boyu üstünlük verilməsi rəqs janrının xüsusiyyətləri ilə bağlıdır.

“Gözəl təbiət” mahnısının melodikası çox inkişaflıdır. Melodiyanın diapazonu undesima intervalını (kiçik oktavanın *h* notundan ikinci oktavanın *e* notuna qədər) əhatə edir. Belə geniş diapazon onu xalq mahnısından daha çox təsniflərlə yaxınlaşdırır. Mahnının melodik hərəkəti səlisdir. [Nümunə 8].

**Nümunə 8**




“Gözəl təbiət” mahnısı *d* rast məqamına əsaslanır. Vokal partiyada məqam alterasiyasız şəkildə tətbiq olunsa da, müşayiətin harmonik dilində alterasiyalı səslərdən istifadə edilir. Burada rast məqamı üçün səciyyəvi olan IX pillənin yarım ton bəmləşməsi müşahidə olunur. Həmin pərdə təbii şəkildə D-dur tonallığının harmonik subdominantası ilə uzlaşır. Qeyd etməliyik ki, mahnının nəqəratı məqamın VII pilləsinə istinad edir, sonra yenə mayəyə enir. Melodiya əvvəlcə nəqəratda VIII pillə (“Vilayəti” şöbəsi) ətrafında gəzişir, bu pərdə ətrafında rəngarəng variant şəkildə gəzişmələr verilir: $a$-$a_1$-$a_2$-$a_3$. Beləliklə O.Kazıminin bu mahnısında xalq musiqisinə xas olan melodik-intonasiya inkişafı, məqam və ritmik xüsusiyyətlər özünü büruzə verir.

A.Şaiqin “Fitnə” pyesinə yazılmış musiqidən ikinci fraqment “Oxu bülbülüm!..” mahnısıdır. Kuplet-nəqərat şəklində qurulan bu mahnı sadə iki hissəli reprizli formadadır. Mahnı iki kuplet və nəqəratdan ibarətdir. Lirik məzmun daşıyan bu mahnıda Şərq təbiətinin bir parçası olan bülbül vəsf edilir. Lirik xarakter həm melodiyada, həm də mahnının müşayiətində özünü büruzə verir. Əgər “Fitnə” tamaşasından “Gözəl təbiət” mahnısı şən, şux ovqatlı idisə, burada elegik əhval-ruhiyyə daha üstündür.

"Oxu bülbülüm" mahnısı 16 xanəli instrumental girişlə başlanır. Girişin tematizmi tonal sekvensiyaya əsaslanır. Mahnının birinci hissəsi (A) dörd cümləli, 16 xanəli mürəkkəb period formasındadır. Nəqərat da mürəkkəb period formasındadır, burada period genişlənmişdir, daha iki cümlə əlavə edilmişdir. Əlavə olunan cümlələr üçüncü və dördüncü cümlələrin variantını təşkil edir. Mahnının sonunda verilən kiçik koda iki cümlədən ibarətdir, mahnı instrumental şəkildə tamamlanır.

Mahnının melodiyası həzin, səlis və axıcıdır, lirik xalq mahnılarına yaxındır. Tematik baxımdan burada "Aman kəklik" xalq mahnısına yaxınlıq duyulur. Hər iki mahnı şüştər ladına əsaslanır. Melodiya variant üsulu ilə inkişaf edir ki, bu da xalq mahnıları üçün xarakterikdir.

Lakin iki mahnını bir-birindən fərqləndirən cəhət O.Kazımının mahnısının daha böyük həcmə malik olmasıdır. Bu mahnı forma baxımından daha dəqiq qəliblənmiş, haşiyəyə salınmışdır. Hər iki mahnını tematik inkişaf baxımından müqayisə edək. *A* şüştərə əsaslanan mahnılar oxşar intonasiyalar üzərində qurulmuşdur. Kuplet və nəqərat hər iki mahnıda şüştərin tamamlayıcı tonuna kadans edir. Melodiyada melizmlərin, trellərin tətbiq olunması hər iki mahnı üçün səciyyəvidir. Bəstəkar mahnısında melizmlər daha zəngin şəkildə istifadə olunaraq melodiyaya xüsusi rövnəq verir. "Oxu bülbülüm!.." mahnısının harmonik dili sadə olub məqamın əsas pərdələrini vurğulayır. İnstrumental girişdə bəstəkar şüştərin tamamlayıcı tonunu (*e*) basda ostinat səsi kimi saxlayaraq onun üzərində sekunda intonasiyalarını verir [Nümunə 10]. Daha sonra məqamın digər pərdələri üzərində rəngarəng akkordlar bir-birini əvəz edir.

**Nümunə 10**




Koda iki eyni cümlənin təkrarına əsaslanır. Bu cümlələrin sonu şüştərin tamamlayıcı tonuna kadans edir. Mahnının instrumental sonluğu isə mayədə bitir, burada tonika akkordu hakimdir.

Tamaşaya yazılan bir sıra nömrələr təsviredici elementlərlə zəngindir. Bu cəhətlərin qabarıq ifadəsini bəzi fraqmentlərdə daha aydın görmək mümkündür. Belə nömrələrdən biri də "40 pilləkən musiqisi"dir [Nümunə 11].

**Nümunə 11**




Bu nömrədə bəstəkar əsərin əsas motivini təşkil edən pilləkənlərin təsvirini ostinat ritmik fon, kvartaların birləşməsi ilə verilən akkordların ardıcıllaşması, registrlərin uzaqlaşması prinsipindən istifadə vasitəsilə yaratmağa nail olur. Bu nömrə həmçinin çiyinlərində böyük bir öküzü qaldıran zərif Fitnənin pilləkənləri qalxıb-enməsindən doğan dözüm, müdriklik, güc və iradə kimi keyfiyyətləri özündə cəmləşdirir. Beləliklə, bəstəkar təsvirçi elementlərə üstünlük verdiyi musiqi parçalarında belə insanın daxilini açan emosional-psixoloji məzmundan uzaqlaşmır.

O.Kazıminin teatr tamaşalarına yazdığı musiqiyə nəzər saldıqda bəstəkarın bu sahədə böyük həvəslə işlədiyinin şahidi oluruq. Müxtəlif ədəbi mənbələr, fərqli dövrlərlə baş verən hadisələrdən ibarət süjet xətti, eləcə də cəmiyyətin müxtəlif təbəqələri ilə bağlı obrazlar aləmi O.Kazıminin musiqisində dolğun təcəssümünü tapmaqla təqdim olunur. Bəstəkar müxtəlif təbiət səhnələrindən tutmuş ayrı-ayrı obrazların daxili aləminin açılmasına qədər ən müxtəlif səhnələri canlandırmaq üçün musiqinin zəngin ifadə vasitələrindən ustalıqla istifadə edərək parlaq musiqi obrazları yaratmışdır.

Beləliklə, səhnə musiqisinin səciyyəvi ifadə vasitələri, təsvirçilik elementlərinin üstünlük təşkil etməsi qəhrəmanların mənəvi aləminin açılmasına yönələn musiqi nömrələrinin yüksək emosional-psixoloji xarakterini kölgədə qoymur, əksinə bəstəkar əsərin və ya baş verən hadisələrin daxili xarakterindən irəli gələn ən münasib ifadə vasitələrindən istifadə edir.

Aparılan təhlilə əsasən belə bir nəticəyə gəlirik ki, O.Kazıminin teatr tamaşalarına bəstələdiyi musiqi yaradıcılığının mühüm sahələrindən biridir. Burada diqqəti çəkən əsas məqam bəstəkarın ən müxtəlif dövrlərdə yaşayıb-yaradan dramaturqların əsərlərinə müraciət etməsidir: A.Puşkin, M.F.Axundov, C.Məmmədquluzadə, M.S.Ordubadi, C.Cabbarlı, A.Şaiq, H.Cavid, N.Hikmət, İ.Əfəndiyev, R.İbrahimbəyov, M.İbrahimbəyov, R.Heydər və b. Bu tamaşaların hər biri ayrılıqda öz obraz məzmunu, qəhrəmanların səciyyəsinə görə fərqlənsə də, O.Kazımi hər bir tamaşanın aparıcı xəttini tutaraq, süjetə uyğun orijinal musiqi bəstələmişdir. Bu musiqi qəhrəmanların daxili dünyasını, onların hiss və emosiyalarını dərindən əks etdirir, hadisə-

lərin gedişatına nüfuz edərək tamaşaçının yaddaşında iz qoyur. A.Şaiqin “Fitnə” tamaşasından iki mahnı – “Gözəl təbiət” və “Oxu bülbülüm”, habelə K.Kərimovun “Çahargah fantaziyası” pyesinə yazılmış eyniadlı məşhur instrumental parça belə nümunələrdəndir. Bəstəkarın bir çox teatr tamaşalarına bəstələdiyi musiqisi əsasən lirik-romantik ruhdadır. Əksər tamaşalarda orkestr təsviredi funksiya daşıyır. A.Şaiqin “Fitnə” pyesinə yazdığı musiqi digər tamaşalara bəstələnmiş musiqidən seçilir. Burada instrumental nömrələrlə yanaşı, vokal musiqiyə - mahnılara geniş yer verilmişdir.

**ƏDƏBİYYAT:**

**Rus dilində**

1. Керимова Н.Г. История театральной музыки Азербайджана в XX веке (монография). Баку: Марс Принт 2008, с. 468

**Notoqrafiya**

2. A.Şaiqin sözlərinə bəstələnmiş musiqi əsərləri. B.: Aspoliqraf, 2011. s. 271
3. Azərbaycan xalq mahnıları /Not yazısı S.Rüstəmov; F.Əmirov; T.Quliyev; tərtib edəni SSRİ xalq artisti Bülbül Məmmədov II cild. B.: İşıq, 1982. 132 s.
4. Kazımi O. A.Şaiqin “Fitnə” pyesinə yazılmış musiqi. Əlyazma (1979)

**Saytoqrafiya**

1. Oqtay Kazımının fərdi saytı. URL:www.oqtaykazimi.az
2. Cennet Selimova - oqtaykazimi.az URL:https://youtu.be/AaRPrmItbEo

**Тарана ЮСИФОВА**
Доцент АНК
Доктор философии по искусствоведению

## МУЗЫКА ОКТАЯ КЯЗИМИ К ДРАМАТИЧЕСКОМУ СПЕКТАКЛЮ «ФИТНЭ»

***Резюме:*** *В статье представлен анализ музыки Октая Кязими к драматическому спектаклю «Фитнэ» по пьесе А.Шаига. Подчёркивается, что наряду с инструментальными номерами, особое внимание композитор в данном спектакле уделяет вокальной музыке. В статье отмечается разнообразие выразительных и изобразительных элементов музыки композитора для театральных постановок, а также стилистические особенности его музыки к драматическим спектаклям.*

***Ключевые слова:*** *Октай Кязими, театр, музыка, мелодия, спектакль, описание, лад*

**Tarana YUSIFOVA**
Associate Professor ANC,
PhD in Art

## MUSIC BY OGTAY KAZIMI FOR DRAMATIC PERFORMANCE "FITNE"

***Summary:*** *In this article the music by Ogtay Kazimi for the theatrical performance "Fitne" based on the play by A. Shaig was analyzed. In this performance, along with instrumental sets, the composer concentrates on vocal music. The article emphasizes the richness of the figurative elements of the composer's music for theatrical performances. The stylistic features of his works in this area are being studied.*

***Keywords:*** *Ogtay Kazimi, theater, music, melody, performance, description, mode*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Zalıyeva Leyla
professor Məmmədağa Umudov